أخلاق المسلم

# Müsəlmanın əxlaqı



Azərbaycan dili

اللغة الأذرية


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

# MÜSƏLMANIN ƏXLAQI

﴿وَلَا تَعۡتَدُوٓاْ﴾ [البَقَرَةِ : ١٩٠]

Həddi aşmayın!

﴿وَلَا تَعۡثَوۡاْ فِي ٱلۡأَرۡضِ مُفۡسِدِينَ ٦٠﴾ [البَقَرَةِ : ٦٠]

Yer üzündə fitnə-fəsad törətməyin!

﴿وَلَا تَلۡبِسُواْ ٱلۡحَقَّ بِٱلۡبَٰطِلِ﴾ [البَقَرَةِ : ٤٢]

Haqqa batil donu geyindirməyin!

﴿وَلَا تَقۡفُ مَا لَيۡسَ لَكَ بِهِۦ عِلۡمٌ﴾ [الإِسۡرَاء : ٣٦]

Haqqında elmin olmadığı bir şeyin dalınca getmə!

﴿وَلَا تَمۡشِ فِي ٱلۡأَرۡضِ مَرَحًا﴾ [الإِسۡرَاء : ٣٧]

Yer üzündə təkəbbürlə gəzmə!

﴿وَلَا تُصَعِّرۡ خَدَّكَ لِلنَّاسِ﴾ [لُقۡمَان : ١٨]

İnsanlardan təkəbbürlə üz çevirmə!

﴿وَٱخۡفِضۡ جَنَاحَكَ لِلۡمُؤۡمِنِينَ ٨٨﴾ [الحِجر : ٨٨]

Möminləri mərhəmət qanadının altına al.

﴿وَٱغۡضُضۡ مِن صَوۡتِكَ﴾ [لُقمَان : ١٩]

Danışanda səsini alçalt!

﴿وَٱقۡصِدۡ فِي مَشۡيِكَ﴾ [لُقمَان : ١٩]

Yerişində həddi gözlə!

﴿وَأَعۡرِضۡ عَنِ ٱلۡجَٰهِلِينَ ١٩٩﴾ [الأَعۡرَاف : ١٩٩]

Cahillərdən üz döndər.

﴿خُذِ ٱلۡعَفۡوَ وَأۡمُرۡ بِٱلۡعُرۡفِ﴾ [الأَعۡرَاف : ١٩٩]

Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et.

﴿ٱدۡفَعۡ بِٱلَّتِي هِيَ أَحۡسَنُ﴾ [المُؤۡمِنُون : ٩٦]

Sən pisliyi yaxşılıqla dəf et.

﴿ٱدۡعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِٱلۡحِكۡمَةِ﴾ [النَّحل : ١٢٥]

İnsanları Rəbbinin yoluna hikmətlə dəvət et.

﴿لَا تُبۡطِلُواْ صَدَقَٰتِكُم بِٱلۡمَنِّ وَٱلۡأَذَىٰ﴾ [البَقَرَة : ٢٦٤]

Sədəqələrinizi, minnət qoymaqla və əziyyət verməklə puç etməyin.

﴿وَلَا تَأۡكُلُوٓاْ أَمۡوَٰلَكُم بَيۡنَكُم بِٱلۡبَٰطِلِ﴾ [البَقَرَة : ١٨٨]

Mallarınızı öz aranızda haqsızlıqla yeməyin

﴿وَلَا تَنَابَزُواْ بِٱلۡأَلۡقَٰبِ﴾ [الحُجُرَات : ١١]

Bir-birinizi pis ləqəblərlə çağırmayın.

﴿لَا يَسۡخَرۡ قَوۡمٞ مِّن قَوۡمٍ﴾ [الحُجُرَات : ١١]

Bir camaat digərini məsxərəyə qoymasın.

﴿وَلَا يَغۡتَب بَّعۡضُكُم بَعۡضًا﴾ [الحُجُرَات : ١٢]

Bir-birinizin qeybətini qırmayın.

﴿وَلَا تَجَسَّسُواْ﴾ [الحُجُرَات : ١٢]

Bir-birinizi güdməyin,

﴿ٱجۡتَنِبُواْ كَثِيرٗا مِّنَ ٱلظَّنِّ﴾ [الحُجُرَات : ١٢]

Zənnə çox qapılmayın.

﴿ٱدۡخُلُواْ فِي ٱلسِّلۡمِ كَآفَّةٗ﴾ [البَقَرَةِ : ٢٠٨]

İslamı bütövlüklə qəbul edin .

﴿وَإِذَا حُيِّيتُم بِتَحِيَّةٖ فَحَيُّواْ بِأَحۡسَنَ مِنۡهَآ﴾ [النِّسَاء : ٨٦]

Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın!

﴿وَبِٱلۡوَٰلِدَيۡنِ إِحۡسَانٗا وَذِي ٱلۡقُرۡبَىٰ﴾ [البَقَرَةِ : ٨٣]

Valideynlərə, qohum-əqrəbaya yaxşılıq edəcəksiniz.

﴿وَأَطۡعِمُواْ ٱلۡبَآئِسَ ٱلۡفَقِيرَ ٢٨﴾ [الحَج : ٢٨]

Sıxıntı içində olan yoxsullara da yedirdin!

﴿وَلَا تَتَبَدَّلُواْ ٱلۡخَبِيثَ بِٱلطَّيِّبِ﴾ [النِّسَاء : ٢]

Yaxşını pis ilə dəyişməyin!

﴿وَءَاتُوا۟ ٱلْيَتَٰمَىٰٓ أَمْوَٰلَهُمْ﴾ [النِّسَاء : ٢]

Yetimlərin mallarını özlərinə verin!

﴿أَنفِقُوا۟ مِمَّا رَزَقْنَٰكُم﴾ [البَقَرَةِ : ٢٥٤]

Sizə verdiyimiz ruzidən Allah yolunda xərcləyin!

﴿وَقُولُوا۟ قَوْلًا سَدِيدًا ۝٧٠﴾ [الأَحْزَاب : ٧٠]

Doğru söz danışın !

﴿وَقُولُوا۟ لِلنَّاسِ حُسْنًا﴾ [البَقَرَةِ : ٨٣]

İnsanlara gözəl söz söyləyin!

﴿ۚ وَلَا تَعَاوَنُوا۟ عَلَى ٱلْإِثْمِ وَ﴾ [المَائِـدَة : ٢]

Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə yardım etməyin !

﴿ۘ وَتَعَاوَنُوا۟ عَلَى ٱلْبِرِّ وَ﴾ [المَائِـدَة : ٢]

Yaxşılıq etməkdə və Allahdan qorxub pis əməllərdən çəkinməkdə bir-birinizə yardım edin !

﴿وَٱحۡفَظُوٓاْ أَيۡمَٰنَكُمۡ﴾ [المَائـِدَة : ٨٩]

Andlarınızı qoruyun !

﴿وَأَوۡفُواْ بِعَهۡدِ ٱللَّهِ إِذَا عَٰهَدتُّمۡ﴾ [النَّحۡل : ٩١]

Allahla bağladığınız əhdə sadiq olun !

﴿وَأَوۡفُواْ ٱلۡكَيۡلَ إِذَا كِلۡتُمۡ﴾ [الإِسۡرَاء : ٣٥]

Ölçdükdə ölçüyə tam riayət edin !

﴿وَزِنُواْ بِٱلۡقِسۡطَاسِ ٱلۡمُسۡتَقِيمِ﴾ [الإِسۡرَاء : ٣٥]

Düz tərəzi ilə çəkin !

﴿كُونُواْ قَوَّٰمِينَ بِٱلۡقِسۡطِ﴾ [النِّسَاء : ١٣٥]

Allah üçün ədaləti qoruyan şahidlər olun !

﴿ٱعۡدِلُواْ﴾ [المَائـِدَة : ٨]

Ədalətli olun !